

Ermənilər İnsan Hüquqları üzrə Avropa Məhkəməsində maraqlarını müdafiə etmək üçün məşhur amerikalı aktyor Corc Kluninin həyat yoldaşı, Livan əsilli ingilis vəkil Amal Alamuddinə müraciət edib.

"Qafqazinfo"nun Ermənistan mətbuatına istinadən verdiyi məlumata görə, bir müddət öncə "Erməni soyqırımı"nı inkar etdiyi üçün İsveçrə məhkəməsi tərəfindən cəzalandırılan (cərimələndirilən) Türkiyə Fəhlə Partiyasının (TFP) sədri Doğu Perinçək İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə müraciət etmişdi. Yanvarın 28-də Avropa Məhkəməsinin Böyük Palatasında baş tutacaq növbəti məhkəmədə üçüncü tərəf (ölkə) olaraq Ermənistanı hüquqşünas Amal Kluni, eləcə də həmkarı Cefri Robertson müdafiə edəcək.